# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№359/7** **28 sentyabr 2023-cü il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsiplər” barədə**

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində Türkiyə təcrübəsindən yararlanmaqla işçi qrupu (işçi qrupunun rəhbəri – Q.Bayramov; üzvləri – N.Talıbov, E.İbrahimov, Q.Əhmədov və R.Cəfərli) tərəfindən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsiplər”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsiplər” təsdiq edilsin (əlavə olunur).
2. Sədrin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsiplər”in müddəalarından irəli gələn məsələlərin auditor təşkilatları və sərbəst auditorlar tərəfindən icra olunmasına dair 2024-cü ilin I rübündə seminarın keçirilməsi təmin edilsin.
3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsiplər”in mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
4. Bu qərarın və “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsiplər”in mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**